Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

RƏQƏMSAL TİBB PROBLEMLƏRİ

məqalələrin xülasələri

EKSPRES - İNFORMASİYA

Bakı – 2026

Rəqəmsal tibb problemləri. Məqalələrin xülasələri. Ekspres-informasiya**.** Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2026, 137 səh.

Hal-hazırda səhiyyənin və tibbin rəqəmsallaşması qlobal trendə çevrilmişdir. Bu trendin nəticəsində tibbi yardımın keyfiyyətinin yüksəldilməsi, tibbi xidmətlərə əlyetərliyin artırılması və onların iqtisadi səmərəliliyinin təmin edilməsində öz əksini tapmaqdadır.

Eyni zamanda İKT-nin tibbə inteqrasiyası geniş spektrli elmi tədqiqatların inkişafına təkan vermişdir. Bu tendensiyaya müvafiq olaraq İnformasiya Texnologiyaları İnstitutunda rəqəmsal tibbin elmi-nəzəri problemləri, həkim qərarlarının qəbul olunması üçün intellektual sistemlərin işlənilməsi, fərdi tibbi məlumatların təhlükəsizliyi, tibdə Big Data problemləri, əşyaların İnterneti, sosial medianın elektron tibdə yaratdığı imkanlar, onların fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyasında rolu, tibbi sferada insan resurslarının formalaşması və idarə olunması məsələləri tədqiq edilmişdir.

Ekspres-informasiyaya İnstitutun əməkdaşları tərəfindən rəqəmsal tibb problemləri üzrə dərc edilmiş elmi əsərlərin xülasələri daxil edilmişdir.

Elmi redaktor: AMEA-nın müxbir üzvü, tex.e.d., prof.
Məsumə Məmmədova.

DOI:10.25045/PDM.05

1. Məmmədova M.H., Əliyev Ə.Q. Elektron səhiyyə sisteminin formalaşması və inkişaf etdirilməsi problemləri / **"Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransı,** Bakı, **4 dekabr 2014,** s. 160-162.

   E-dövlət quruculuğu kontekstində elektron səhiyyə sisteminin formalaşması məsələləri təhlil olunur. Səhiyyə sferasının informasiyalaşdırılmasının zəruriliyi və aktuallığı əsaslandırılır. Teletibb, tibbi informasiya sistemləri və səhiyyə sistemində e-xidmətlərin xüsusiyyətləri araşdırılır. E-səhiyyənin inkişaf etdirilməsi istiqamətləri göstərilir.

2. Мамедова М.Г. Информационная безопасность персональных медицинских данных в электронной среде // **İnformasiya Texnologiyaları Problemləri**. **2015,** № 2, с. 16-30.

   Исследованы вопросы защиты персональных данных в системе электронной медицины. Приведены подходы к обеспечению информационной безопасности данных о состоянии здоровья пациентов в мировой практике, выделены специфические особенности персональных медицинских данных и показаны потенциальные угрозы конфидециальности и безопасности медицинской и врачебной тайн в медицинских информационных системах. Рассмотрена правовая основа защиты

персональных данных в Азербайджане и обоснована целесообразность разработки в республике нормативно-методических документов, регулирующих информационную безопасность персональной медицинской информации.

3. Мамедова М.Г. Проблемы информационной безопасности персональных данных в условиях электронной медицины / **İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı,** Bakı, **14 may 2015**, c. 52-55.

   Исследованы проблемы защиты персональных данных в электронной медицине. Приведены подходы к обеспечению информационной безопасности данных о состоянии здоровья в мировой практике, выделены специфические особенности персональных медицинских данных и показаны потенциальные угрозы конфиденциальности и безопасности медицинской и врачебной тайны в информационных системах. Рассмотрены правовые основы защиты персональных медицинских данных в Азербайджане.

4. Mammadova M.H. The problems of information security of electronic personal health data / **Proceedings of the 7th IEEE International Conference on IT in Medicine and Education** (ITME2015), **November 13-15, 2015,** pp.678-682.

The article deals with the protection of personal data in the e-health. The author discusses approaches to the information security of patients" health data in the international practice, highlights the specific features of the personal medical data, and shows the potential threats to privacy and security of the medical secrecy and patient confidentiality in the healthcare information systems. The paper considers the legal framework of the personal data protection in Azerbaijan and justifies the expediency of normative and methodological documents development in the country, which would regulate the information security of the personal health information.

5. Məmmədova M.H., Cəbrayılova Z.Q. Tibbi ekspert sistemləri: imkanları, tətbiq istiqamətləri, Azərbaycanda mövcud vəziyyət / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 138-142.

Məqalədə süni intellektin istiqaməti kimi tibbi ekspert sistemlərin (ES) yaranma tarixi haqqında məlumat verilir, çətin formalizə olunan tibbi məsələlərin həllində ekspert biliklərinə istinad etməklə qərarların qəbuluna dəstək olan sistemlərin yaradılmasının aktuallığı əsaslandırılır, tibbi ES-in tətbiq istiqamətləri göstərilir. Müasir tibbi ES və Azərbaycanda işlənilmiş tibbi ES haqqında məlumat verilir. Respublikamızda ES-in yaradılması üçün bilik mühəndisliyinin inkişafına və bilik mühəndislərinin hazırlanmasına diqqətin ayrılması, yaradılmış

sistemlərin istismarı istiqamətində fəallığın artırılması təklif olunur.

6. Cəbrayılova Z.Q. Elektron tibb mühitində kadrların hazırlanması: çağırışlar və perspektivlər / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 178-183.

   İnformasiya və kommunikasiya texnologiyalarının dinamiki inkişafı, tibbi sferaya inteqrasiyası elektron tibbin (e-tibb) formalaşmasına zəmin yaratmışdır. Tibbi sfera üçün informasiya texnologiyaları (tibbi informatika) ixtisasları üzrə kadr hazırlığı bu gün ən aktual məsələlərdəndir. Məqalədə e-tibbin insan resursları probleminin həllinə yönəlmiş qabaqcıl ölkələrin bir sıra çağırışları, qəbul olunmuş strategiyalar, proqramlar analiz olunur, respublikamızda tibbi informatika üzrə təlimin vəziyyəti şərh edilir, tövsiyələr təklif edilir.

7. Məmmədova M.H. Elektron fərdi tibbi məlumatların informasiya təhlükəsizliyi problemləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı**, 24 may 2016**, s. 192-196.

   Elektron tibdə fərdi məlumatların qorunması problemləri tədqiq edilmişdir. Beynəlxalq təcrübədə pasiyentlərin sağlamlıq vəziyyətləri haqqında məlumatların informasiya təhlükəsizliyinin təmin edilməsinə yanaşmalar göstərilmiş, fərdi tibbi məlumatların spesifik xüsusiyyətləri qeyd edilmiş, tibbi

informasiya sistemlərində tibbi və həkim sirlərinin konfidensiallığı və təhlükəsizliyinə potensial təhlükələr göstərilmişdir. Azərbaycanda fərdi tibbi məlumatların qorunmasının hüquqi əsasları nəzərdən keçirilmiş və Respublikada fərdi tibbi məlumatların qorunmasını tənzimləyən normativ-hüquqi sənədlərin işlənməsinin məqsədəmüvafiqliyi əsaslandırılmışdır.

8. Məmmədova M.H., İsayeva A.M. Teletibb / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 204-207.

   Məqalə teletibbin elektron səhiyyədə rolu və tətbiqinə həsr olunmuşdur. Teletibbin mahiyyəti, vəzifələri, qısa tarixi haqqında məlumat verilmiş, teletibbin əsas tətbiqi istiqamətləri və onların funksional imkanları göstərilmişdir. Teletibbin dünyada və MDB ölkələrində inkişaf vəziyyəti təsvir edilmişdir. Teletibbin geniş inkişafına mane olan problemlər qeyd edilmişdir.

9. Məmmədova M.H., Amooji A. Epilepsiya xəstəliyinin diaqnostikası üzrə ekspert sistemi / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 211-214.

   Məqalə kompüter vasitəsilə nevrologiya sahəsində geniş yayılmış xəstəliklərdən biri olan epilepsiyanın diaqnostikasına həsr edilmişdir. Epilepsiya xəstəliyinin növlərini bir-birindən

dəqiq ayırmaq mümkün olmadığı qeyd edilmiş və bu səbəbdən də onların sistemləşdirilməsi üçün qeyri-səlis məntiq və ekspert biliklərinin istifadə edilməsi zərurəti əsaslandırılmışdır. Epilepsiya xəstəliyinin müxtəlif növlərinin diaqnostikası üçün qeyri-səlis ekspert sistemi yaradılmışdır.

10. Məmmədova M.H., Cəbrayılova Z.Q. Tibbi kadrlara tələb və təklifin qiymətləndirilməsi və idarə edilməsi problemləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 225-229.

    Məqalədə tibbi kadrlara tələbin təyin edilməsi məsələsinin səciyyəvi cəhətləri şərh edilmiş, tibbi sferada kadr təminatı ilə bağlı vəziyyət araşdırılmışdır. Azərbaycanda kadr təminatı və kadr hazırlığının dinamikası səhiyyənin əsas göstəriciləri üzrə təhlil olunmuşdur. Tibbi informatika üzrə mütəxəssislərin sayının təyini və onun tibbi kadrlara olan tələbə təsiri ilə bağlı aparılan tədqiqatların nəticələri verilmişdir. Tibbi kadrlara tələb və təklifin tənzimlənməsi məsələsinin həllində sosial sorğularla yanaşı, elmi əsaslandırılmış yanaşmaların işlənilməsi və tibbi informatiklərin hazırlanmasına xüsusi diqqət ayrılmasının zəruriliyi göstərilmişdir.

11. Cəbrayılova Z.Q. Tibbi bilik mühəndisliyi: təbii tibbi intellektin süni tibbi intellektə transformasiyası problemləri / **"Elektron tibbin multidissiplinar**

problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016**, s. 250-254.

Məqalədə süni intellektin bir istiqaməti kimi bilik mühəndisliyi haqqında məlumat verilir, çətin formalizə olunan tibbi məsələlərin həllində bilik mühəndisliyi texnologiyasının tətbiqi problemlərinə baxılır. Biliyin alınmasının metod və nəzəri aspektləri, biliyin təsvir üsulları analiz olunur, ekspert sistemlərin (ES) yaradılmasında bilik mühəndislərinin icra etdiyi funksiyalar mərhələlərlə göstərilir. Respublikamızda e-tibbin formalaşması, tibbi ES-in yaradılması üçün bilik mühəndisliyinin inkişafına və bilik mühəndislərinin hazırlanmasına diqqətin artırılmasının vacibliyi əsaslandırılır.

12. Məmmədova M.H., Quliyeva N.Q., Əhmədov S.A. Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası prosesində İKT-nin rolu / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 273-276.

Məqalədə sağlamlıq imkanları məhdud olan insanların yeni texnologiyalar vasitəsilə cəmiyyətə inteqrasiya yolları araşdırılmış və müəyyən həll yolları müzakirə olunmuşdur.

13. Məmmədova M.H., Cəbrayılova Z.Q. Azərbaycanda tibbi bilik mühəndisliyinin müasir problemləri / **"Riyaziyyatın tətbiqi məsələləri və yeni informasiya texnologiyaları"**

III respublika elmi konfransı, Sumqayıt, **15-16 dekabr 2016,** s. 252-253.

Məqalədə müasir riyazi metodların, süni intellekt texnologiyalarının, innovativ yanaşmaların tətbiqi ilə tibbin müxtəlif sahələrində qəbul olunan tibbi qərarların adekvatlığını təmin etmək üçün yaradılan ekspert sistemlərin əhəmiyyəti göstərilir. Hazırda böyük verilənlər əsrinin başlaması ilə informasiya bolluğunun tibdə yaratdığı problemlərin qarşısının alınması üçün bu istiqamətdə tədqiqatların daha da aktuallaşdığı qeyd edilir. Azərbaycanda yaradılan tibbi ekspert sistemlər haqqında məlumat verilir, e-tibbin formalaşdığı şəraitdə onların yaradılması və istismarı, təbii tibbi biliklərin süni tibbi biliklərə transformasiyası üzrə mütəxəssislərin – bilik mühəndislərinin hazırlanmasına xüsusi diqqət ayrılmasının zəruriliyi bildirilir.

14. Məmmədova M.H., Cəbrayılova Z.Q. Tibbi kadrlara tələb və təklifin intellektual idarə olunmasında situasiyaların qeyri-səlis oxşarlığı üsullarının tətbiqi / **"Riyaziyyatın tətbiqi məsələləri və yeni informasiya texnologiyaları" III respublika elmi konfransı,** Sumqayıt, **15-16 dekabr 2016,** s. 192-193.

Məqalədə tibbi kadrlara tələb və təklifin qarşılıqlı əlaqəsi və onların idarə olunması prosesinin modelləşdirilməsi məsələsinə baxılır. Tələb və təklifin spesifik cəhətləri nəzərə alınaraq onların

qeyri-səlis situasiya modelləri verilir. Tələb və təklifin intellektual idarə olunması məsələsi tibb mütəxəssislərinin seçilməsi və işə qəbulu mexanizmlərinin işlənilməsinə gətirilərək qeyri-səlis situasiyaların oxşarlığı dərəcəsinin təyini üsulları əsasında həll edilməsi təklif edilir.

15. Əliquliyev R.M., Hacırəhimova M.Ş. Səhiyyədə Big data erası / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı**, Bakı, **24 may 2016,** s.19-24.

    Məqalədə informasiya cəmiyyətinin əsas hərəkətverici qüvvəsi hesab edilən Big data mövzusuna baxılır, Big data-nın mahiyyəti açıqlanır. Digər sahələrdə olduğu kimi, səhiyyədə Big data-nın mənbələri, imkanları şərh olunur. Həmçinin Big datanın səhiyyədə yaratdığı bəzi problemlər analiz olunur.

16. Hacırəhimova M.Ş., Əliyeva A.S. E-tibbə dair beynəlxalq qurumların və xarici ölkələrin təcrübəsi: çağırışlar, strategiyalar, konsepsiyalar / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 77-83.

    Məqalədə beynəlxalq qurumların və bəzi inkişaf etmiş ölkələrin elektron tibb sahəsindəki strategiyaları, konsepsiyaları tədqiq olunur. Azərbaycanda səhiyyənin informasiyalaşdırılması ilə bağlı təklif və tövsiyələr irəli sürülür.

17. Hacırəhimova M.Ş., Gözəlova H.Y. Data Science və onun tibbi ixtisaslar üzrə proyeksiyaları / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı**, 24 may 2016,** s. 184-187.

    Məqalədə Data Science-in mahiyyəti şərh edilmiş, bir fənn kimi səhiyyə sahəsinə müvəffəqiyyətlə inteqrasiyasından bəhs olunmuşdur. Həmçinin Data Science-in tibbi ixtisaslar üzrə tədrisində beynəlxalq təcrübə araşdırılmışdır.

18. Hacırəhimova M.Ş., İsmayılova M.İ. Elektron tibdə informasiya təminatının bəzi məsələləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016** s. 238-240.

    Bu iş tibdə informasiya texnologiyalarının tətbiqinə həsr olunmuşdur. İnformasiya-kommunikasiya texnologiyaları xidmətləri, informasiyanın emal texnologiyaları, informasiya emalının texnoloji səviyyələri, avtomatlaşdırılmış iş yerləri, elektron klinik sənədlər şərh olunur.

19. Qasımova R.T. Böyük həcmli tibbi verilənlərin analitikası: mövcud problemlər və imkanlar / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 99-103.

    Verilənlərin həcminin artması və real zaman rejimində onların analizinə olan tələbat böyük verilənlərin analitikasının yaranmasına gətirib çıxarır. Məqalədə səhiyyə sahəsində

yaranan böyük verilənlərin analitikasının mövcud problemləri araşdırılır, böyük verilənlərin əsas xüsusiyyətləri tədqiq olunur. Eyni zamanda, səhiyyə sahəsində böyük verilənlərin müxtəlif üstünlükləri, imkanları və xarakteristikaları müəyyənləşdirilir və bir sıra tövsiyələr verilir.

20. İmamverdiyev Y.N. E-dövlətin informasiya təhlükəsizliyi üçün Big Data texnologiyaları / **"Big data: imkanları, multidissiplinar problemləri və perspektivləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **25 fevral 2016,** s. 86-90.

    Big Data texnologiyaları bir sıra spesifik informasiya təhlükəsizliyi problemləri yaratmaqla yanaşı, informasiya təhlükəsizliyinin təmin edilməsi üçün yeni imkanlar da vəd edir. Bu işdə Big Data texnologiyalarının gətirdiyi yeni informasiya təhlükəsizliyi təhdidləri analiz edilir və bu texnologiyaların e-dövlətin informasiya təhlükəsizliyi sistemində tətbiqi imkanları qiymətləndirilir.

21. İmamverdiyev Y.N. İnformasiya təhlükəsizliyi üzrə tədqiqatlar üçün böyük və kiçik verilənlər / **"Big data: imkanları, multidissiplinar problemləri və perspektivləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **25 fevral 2016**, s. 95-98.

    Big Data texnologiyaları informasiya təhlükəsizliyi üzrə tədqiqatlarda böyük verilənlər toplularından istifadə edilməsini

tələb edir. Lakin belə verilənlərin toplanması, tədqiqatçıların geniş dairəsi üçün əlyetər edilməsi sahəsində bir sıra hüquqi, təhlükəsizlik, etik, intellektual mülkiyyət, rəqabət və digər problemlər mövcuddur. Məqalədə informasiya təhlükəsizliyi sahəsində aktual tədqiqat istiqamətləri üzrə mövcud verilənlər topluları haqqında məlumat verilir, bu toplulara müraciət modelləri analiz edilir.

22. İmamverdiyev Y.N. E-səhiyyə: informasiya təhlükəsizliyinin aktual problemləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 32-38.

    E-səhiyyə keyfiyyətli tibbi xidmətlərin və məlumatların bütün cəmiyyətə əlyetərliyi sahəsində müxtəlif perspektivlər vəd edir. Bununla yanaşı, şəxsi həyatın toxunulmazlığı və informasiya təhlükəsizliyi baxımından bir sıra təhlükələrə də yol açır. Bu işdə e-səhiyyə sahəsində əsas inkişaf tendensiyalarına qısa nəzər salınır, əsas informasiya təhlükəsizliyi təhdidləri potensial risk baxımından xarakterizə olunur və informasiya təhlükəsizliyinin təmin edilməsinin vacib mexanizmləri analiz edilir. E-səhiyyə sistemlərində, o cümlədən simsiz bədən sensorları şəbəkələrində informasiya təhlükəsizliyinin təmin edilməsinin aktual elmipraktiki problemləri identifikasiya edilir.

23. İmamverdiyev Y.N. E-səhiyyə üçün konseptual Big Data arxitekturası / **"Elektron tibbin multidissiplinar**

problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016,** s. 58-62.

Big Data texnologiyaları e-səhiyyə sistemlərinin qurulması üçün vacib əhəmiyyət daşıyan yanaşmalar və alətlər təqdim edir. Bu işdə e-səhiyyə sistemlərinə real zaman rejimində daxil olan böyük həcmli və müxtəlif formatlı tibbi verilənlərin paylanmış klaster sistemlərində saxlanması və bu verilənlərin dərin analitika və maşın təlimi metodları ilə analizi üçün nəzərdə tutulmuş hibrid bulud-Big Data platforması üçün konseptual arxitektura təklif edilir. Həyat qabiliyyətli Big Data həllinin yaradılması üçün Hadoop ekosistemindən zəruri alətlərin seçilməsi məsələsinə də baxılır.

24. Əliquliyev R.M., Abdullayeva F.C. Fərdi tibbi məlumatların on-line mühitdə təhlükəsizliyi problemləri / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s.104-109.

Təqdim olunan məqalədə fərdi tibbi məlumatların onlayn mühitdə təhlükəsizlik problemləri tədqiq olunur. Elektron tibb qeydləri və sistemləri terminlərinə aydınlıq gətirilir, e-səhiyyə sahəsində fəaliyyət göstərən standartlaşdırma təşkilatları, fərdi tibbi məlumatların toplanmasını həyata keçirən tətbiq modelləri təsvir edilir. Fərdi tibbi məlumatların qorunması üzrə beynəlxalq təcrübə araşdırılır, təhlükəsizlik və gizlilik

problemləri müəyyən olunur və onların həlli üçün təklif və tövsiyələr verilir.

25. Əliquliyev R.M., Abdullayeva F.C. Elektron sağlamlıq kartlarının buludlaşması məsələləri / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 44-48.

    Təqdim olunan məqalə elektron sağlamlıq kartlarının tətbiqinin mövcud vəziyyətinin analizi məsələsinə həsr olunmuşdur. Bu məqsədlə elektron sağlamlıq kartı, elektron sağlamlıq kartı sisteminin ümumi strukturu təsvir edilir, elektron sağlamlıq kartının beynəlxalq mühitdə və Azərbaycan Respublikasında mövcud vəziyyəti araşdırılır. Elektron sağlamlıq kartlarının üstünlükləri və çatışmazlıqları, buludlaşması məsələləri tədqiq olunur, elektron sağlamlıq kartı sisteminin tətbiqi problemləri müəyyən olunur və onların həlli istiqamətində təklif və tövsiyələr verilir.

26. Fətəliyev T.X., Verdiyeva N.N., Fətəliyeva N.T. E-tibb e-elmin tərkib hissəsi kimi / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 72-74.

    Məqalə e-tibbin aktual məsələlərinə həsr olunmuşdur. E-elmin tərkib hissəsi kimi e-tibb problemləri araşdırılmış və onun inkişafında beynəlxalq dəstəyin əsas istiqamətləri verilmişdir. 4P

tibbin reallaşdırılması prosesində e-tibbin yeri müəyyənləşdirilmişdir.

27. Ələkbərov R.Q., Həşimov M.A., Ələkbərov O.R. Elektron tibb və bulud texnologiyaları: imkanlar və perspektivlər / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s.49-52.

    Məqalədə bulud texnologiyaları, modelləri və servisləri təhlil edilmişdir. Bulud texnologiyalarının elektron tibb sahəsində tətbiqi imkanları göstərilmiş və bu texnologiya əsasında həyata keçirilən layihələr analiz olunmuşdur.

28. Ələkbərov R.Q., Mustafayev T.İ., Yaqubov M.M. Superkompüterlərin e-tibdə tətbiqi / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 134-137.

    Məqalədə tibb sahəsində meydana çıxan böyük hesablama və yaddaş resursları tələb edən mürəkkəb məsələlərin həllində superkompüterlərdən istifadə olunduğu diqqətə çatdırılır. Superkompüterlər vasitəsi ilə ekspert sistemlərin köməyi ilə dəqiq diaqnozların qoyulması, effektiv müalicə üsullarının tapılması və dərman preparatlarının hazırlanması məsələlərinə baxılmışdır.

29. Ələkbərov R.Q., Dursunov S. Elektron tibdə Qrid texnologiyalarının tətbiqi / **"Elektron tibbin**

multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016,** s. 161-163.

Məqalədə Qrid texnologiyasının tibdə tətbiqi haqqında geniş məlumat verilir. Tibb sahəsində böyük hesablama və yaddaş resursları tələb edən məsələlərin həllində Qrid texnologiyalarının istifadəsi məsələləri analiz edilmişdir. Qrid texnologiyaları əsasında işləyən paylanmış hesablama sistemlərində istifadə edilən BOINC (Berkeley Open Infrastructure for Network Computing) platforması, onun işləmə prinsipi təhlil edilmişdir. BOINC platformasında işləyən World Community Grid layihəsinin xüsusiyyətləri və bu layihədə həlli nəzərdə tutulan məsələlərin analizi diqqətə çatdırılır.

30. Abdullayev S.H., Fomenko S.S. E-tibdə istifadə olunan standartlar / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 243-246.

Tibbi informatika sahəsində mövcud olan standartlar tibbi terminologiyanın istifadəsini tənzimləyir, tibbi sənədlərin və şəkillərin ötürülmə mexanizmlərini təyin edir və istifadəçilər üçün tibbi verilənlərdən azad istifadəsini təmin edir. Tibbi informatikanın HL7, DICOM, SNOMED, RCC kimi geniş yayılmış standartları nəzərdən keçirilir.

31. Ağayev B.S. Tibbi elektron tullantıların idarə edilməsinin bəzi məsələləri haqqında / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 188-191.

    Məqalədə tibbi elektron tullantılarının insan sağlamlığı və ətraf mühit üçün yaratdığı potensial təhlükələr araşdırılır. Bu tullantıların idarəetmə sisteminin yaradılması zəruriliyi əsaslandırılır. Sistemin tərkib hissəsi olan qanunvericilik bazasının Azərbaycandakı və bir sıra inkişaf etmiş ölkələrdəki vəziyyəti müqayisəli şəkildə analiz edilir.

32. Ağayev B.S., Mehdiyev Ş.A., Əliyev T.S., Mehdiyev O.Ş. Tibbi elektron tullantıların sağlamlığa və ətraf mühitə ziyanlı təsiri haqqında / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016**, s. 268-272.

    Məqalədə tibbi elektron avadanlıqların və onların tullantılarının insan sağlamlığı və ətraf mühitə təsiri tədqiq edilir. Onların ziyanlı təsirinin yaratdığı potensial təhlükələrin sanitarepidemioloji normaları və tənzimləyici normativ sənədləri araşdırılır.

33. Əliyev Ə.Q., Musayeva E.H., İbişova M.M. Tibbi informasiyalaşdırma: bəzi sosial-ekoloji problemlər və innovativ həllər / **"Elektron tibbin multidissiplinar**

problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016,** s. 221-224.

Məqalə elektron tibb texnologiyalarının bəzi inkişaf istiqamətlərinə həsr olunmuşdur. Tibbi informasiya və bilik resurslarına tələbatın artması əsaslandırılmışdır. Tibbin informasiyalaşdırılması üzrə bir sıra problemlər təhlil olunmuşdur. E-tibb texnologiyalarının tətbiqi zamanı meydana çıxan bir sıra ictimai-sosial, ekoloji-psixoloji problemlərin innovativ həlli yolları göstərilmiş və tövsiyyələr verilmişdir.

34. Əliyev Ə.Q. İnformasiya cəmiyyəti şəraitində elektron tibbin iqtisadi tənzimlənməsi problemləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 88-91.

Məqalə informasiya cəmiyyəti şəraitində elektron tibb (e-tibb) texnologiyalarının inkişafının iqtisadi tənzimlənməsinə həsr olunmuşdur. Müasir cəmiyyətin tibbi informasiya və bilik resurslarına tələbatının dolğun ödənilməsi zərurəti əsaslandırılmışdır. İnformasiya cəmiyyəti şəraitində e-tibb texnologiyaları üzrə innovasiyaların məzmunu izah olunmuşdur. E-tibb texnologiyalarının innovativ potensialı və inkişaf istiqamətləri, kommersiyalaşdırılması perspektivləri təhlil olunmuşdur. Ölkə vətəndaşlarının xarici ölkələrin tibbi xidmətlərindən istifadəsi zamanı meydana çıxan iqtisadi problemlərin həlli yolları təklif edilmişdir.

35. Əsgərova A.A., Əkbərova L.Ə. Kompüterdən ifrat istifadə nəticəsində yaranan bəzi fəsadlar və onların qarşısının alınması yolları / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 284-286.

    Məqalədə cəmiyyət həyatında böyük rol oynayan İKT-nin insanın sağlamlığına təsiri nəticəsində yaranan fəsadlar haqqında məlumatlar ümumiləşdirilmiş və təhlil edilmişdir. Görmə və tunnel sindromlarının, hipodinamiyanın və kompüter asılığının əlamətləri təsvir edilmiş və onların profilaktikası üzrə bəzi tövsiyələr verilmişdir.

36. Şahverdiyeva R.O., Abbasova V.Ə., Əliyeva T.H. Tibbi informasiya təminatının formalaşmasında statistik informasiyaların strukturlaşdırılması / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 124-126.

    Məqalə səhiyyə informasiya sistemlərində müalicə proseslərinin qiymətləndirilməsi və təhlili üzrə zəruri olan statistik məlumatların müəyyənləşdirilməsinə və struktur təhlilinə həsr olunmuşdur. Tibbi müəssisələrin fəaliyyətinin informasiya təminatı məsələləri və səhiyyənin informasiyalaşdırılmasının inkişafına təsir edən bəzi amillər göstərilmişdir. Qərar qəbuletmə proseslərində statistik indikatorların rolu, tipləri, statistik tədqiqatın məqsədi, həmçinin statistik standartlar və

meyarlar ətraflı tədqiq edilmişdir. Xəstəxana göstəricilərinin müqayisəli təhlili verilmişdir.

37. Kazımov T.H., Mahmudova Ş.C. Elektron tibdə biometrik texnologiyaların tətbiqi məsələləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 151-155.

    Bu işdə biometrik texnologiyalar və onların elektron tibdə istifadə edilməsi imkanları və perspektivləri təhlil edilmişdir. Biometrik texnologiyalardan istifadə etməklə səhiyyədə tibbi xidmətin etibarlılığının yüksəldilməsi yolları göstərilmişdir. İnsan cəsədinin kəlləsi və başının sağ ikən çəkilmiş fotoşəklinə əsasən identifikasiya olunması məsələlərinə toxunulmuşdur. Biometrik texnologiyaların elektron tibdə tətbiqi imkanları araşdırılmış, onların üstün cəhətləri qeyd olunmuşdur.

38. Kazımov T.H., Bayramova T.A. Elektron tibdə proqram mühəndisliyinin tətbiqi məsələləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 197-200.

    Məqalədə müasir informasiya texnologiyalarının tibdə tətbiqi və elektron tibbin əsas inkişaf istiqamətləri haqqında məlumat verilmişdir. Mövcud tibbi-informasiya sistemləri, bu sahədə tətbiq edilən altsistemlər və standartlar araşdırılmışdır. Dünya təcrübəsinə istinadən belə sistemlərin yaradılma prosesləri və

inkişaf tendensiyaları təhlil edilmiş, bu sahədə mövcud çətinliklər göstərilmişdir.

39. Kazımov T.H., Məlikova N.C. Uşaq və yeniyetmələrdə internet asılılığının diaqnostika və profilaktikası məsələləri haqqında / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 290-292.

    Bu işdə uşaq və yeniyetmələrdə internet asılılığının xüsusiyyətləri və doğurduğu fəsadlar təhlil edilmişdir. İnternet asılılığının diaqnostikası, profilaktikası, uşaqların bu təhlükədən qorunmasının xüsusiyyətləri tədqiq olunmuş, Azərbaycanda bu problem üzrə mövcud vəziyyət araşdırılmışdır.

40. Aslanova G.N. İnsanın ovuc izlərinin təsvirləri əsasında xəstəliklərin diaqnostikası və təhlükəsizlik məsələləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfrans,** Bakı, **24 may 2016,** s.130-132.

    Bu işdə dermatoqlifik tədqiqatların müxtəlif xəstəliklərin müəyyən edilməsində istifadə olunmasından və biometrik texnologiyaların təhlükəsizlik məsələlərindən bəhs olunmuşdur. Həmçinin elektron tibdə biometrik sistemlərin təhlükəsizlik məsələlərinə baxılmışdır.

41. Mehdiyev Ş.A., Qurbanov Q.M. Mobil onlayn tibb texnologiyaları / **"Elektron tibbin multidissiplinar**

problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016,** s. 247-249.

Məqalədə mobil tibb və səhiyyənin əsas istiqamətləri bazar islahatları və informasiya cəmiyyəti mövqeyindən inqilabi və sosial fenomen kimi araşdırılır. Mobil tibb sahəsində hal-hazırda olan və gələcəkdə ola biləcək təhdidlərə baxılır. Tibb bazarına informasiya və mobil telefonların giriş mexanizmi, onların qarşılıqlı həkim-xəstə münasibətləri sisteminə təsiri və gələcək inkişaf perspektivləri göstərilir. Sağlamlığın mühafizəsi problemlərinin həlli istiqamətində mobil texnologiyaların rolu önə çəkilir. Bir sıra mobil tibb proqramlarının müqayisəli təhlili verilir.

42. İsmayılova N.T. E-tibbi kitabxanalar şəbəkəsinin yaradılması / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 241-242.

    Məqalədə tibbi kitabxanaların yaranması, kitabxanalar şəbəkəsinin yaradılması zamanı meydana çıxan problemlər, dünyada və Azərbaycanda mövcud olan tibbi kitabxanalar haqqında məlumat verilmiş, e-tibbi kitabxanalar şəbəkəsinin yaradılmasının vacibliyi əsaslandırılmışdır.

43. Alıquliyev R.M., Amooji A. Nevroloji xəstəliklərin diaqnostikası üzrə ekspert sistemində biliklərin təsviri modelləri / **"Elektron tibbin multidissiplinar**

problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016,** s. 171-174.

Məqalədə nevroloji xəstəliklərin diaqnostikası üzrə ekspert sistemində biliklərin təsviri modelləri araşdırılır. Burada biliklərin təsviri üçün modellər iki əsas sinfə ayrılır. Birinci model produksiya modelləri və ikinci deklarativ modellərdir. Keçmişdə layihələndirilən ekspert sistemlərin əksəriyyətində biliklərin təsviri üçün produksiya modelləri istifadə olunması, həmçinin deklarativ modellərin yeniliyi bizi deklarativ modellərin səmərəli modelindən biri olan ontologiyaya əsaslanan modelin istifadəsinə gətirib çıxarır. Bu istiqamətdə nevroloji xəstəliklərin diaqnostikası üzrə ekspert sisteminin ontologiya əsasında biliklərinin təsviri 6 mərhələdə təklif olunur.

44. Qurbanova Ə.M. Elektron tibbə dair terminologiyanın formalaşması problemləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 114-116.

Məqalə tibb sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin müxtəlif istiqamətlərini əhatə edən terminlərin analizinə həsr olunub. Bu sahədə terminologiyanın XX əsrin ilk illərindən yarandığı və hazırkı dövrdə təkmilləşməkdə davam etdiyi göstərilib. İnformasiya texnologiyalarının inkişafı, eyni zamanda onların köməyilə həllini tapan məsələlərin spektrinin genişlənməsinin

anlayışların tədrici inkişafını şərtləndirdiyi önə çəkilib. Elektron tibbi kartla bağlı terminlərə aydınlıq gətirilib.

45. Yusifov F.F. Elektron tibb elektron dövlətin seqmenti kimi / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s.84-87.

    Məqalədə elektron tibb elektron dövlətin seqmentlərindən biri kimi tədqiq olunur. Elektron tibb sahəsində beynəlxalq təcrübə və Avropada qəbul edilən elektron tibb strategiyaları analiz edilir. G2C sektorunda elektron tibb xidmətlərin göstərilməsinə dair mövcud təcrübə araşdırılır və perspektivlər göstərilir.

46. Mahmudov R.Ş. Elektron tibbin hüquqi problemləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s.117-120.

    Məqalədə elektron tibb fəaliyyəti ilə bağlı hüquqi problemlər araşdırılır. Bu sahədəki mövcud beynəlxalq hüquq normaları şərh olunur. Dövlətin müvafiq hüquqi siyasətinin əsas istiqamətləri göstərilir. Eləcə də, elektron tibb münasibətləri ilə əlaqədar olan yurisdiksiya və lisenziyalaşdırma, fərdi məlumatların qorunması, telekommunikasiya operatorlarının məsuliyyətinin müəyyən edilməsi kimi məsələlərə toxunulur.

47. Ələkbərova İ.Y. Viki texnologiyaların elektron tibdə tətbiqi / **"Elektron tibbin multidissiplinar problemləri"**

I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016**, s.121-123.

Son dövrlər viki texnologiyaların müxtəlif sahələrə tətbiqi müşahidə olunur. Elektron tibdə də viki texnologiyalarından istifadə olunmaqdadır və bununla bağlı artıq müxtəlif yanaşmalar mövcuddur. Məqalədə vikimetriya haqqında məlumat verilmiş, viki texnologiyaların imkanları və e-tibdə tətbiq sahələri göstərilmişdir.

48. Səmidov A.F. E-tibb və 3D texnologiyaları / "**Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 127-129.

3D çap texnologiyaları həyatımıza daxil olunur. Məqalədə 3D texnologiyalarının tibdə tətbiqi imkanları göstərilir, insanın bədən üzvlərinin 3D printer nümunələri və onların səmərəliliyi imkanları şərh edilir.

49. Mahmudova R.Ş. İnformasiyanın əhalinin sağlamlığına təsiri problemləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 264-267.

Məqalədə informasiya bolluğu nəticəsində insanın məruz qaldığı informasiya yüklənməsi problemləri, informasiyanın insanların sağlamlığına təsiri məsələləri araşdırılır. Eyni zamanda, informasiya məkanının çirklənməsi problemləri ilə məşğul olan informasiya ekologiyası və onun tədqiqat sahəsi təhlil edilmişdir.

Cari informasiya mühitinə uyğunlaşmaq üçün informasiya mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyi əsaslandırılmışdır.

50. Ocaqverdiyeva S.S. Müasir texnologiyaların uşaqların sağlamlığına ziyanlı təsirləri və onlardan qorunma mexanizmləri / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 281-283.

    Məqalədə İnternetdən və ya kompüter texnologiyalarından istifadənin uşaqların fiziki, mənəvi və psixoloji sağlamlığına göstərdiyi təsirlər araşdırılır. Kompüter, mobil telefon və s. texnologiyaların təsiri ilə uşaqlarda yaranan bəzi xəstəliklər və onlardan qorunma yolları tədqiq olunur.

51. Qurbanova K.Ş. İKT-nin təsiri ilə yaranan xəstəliklər haqqında / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** s. 287-289.

    Məqalədə informasiya-kommunikasiya texnologiyalarından istifadə edərkən istifadəçinin sağlamlığına dəyən tibbi və psixoloji ziyan araşdırılır. Onların proflaktika yolları müəyyən olunaraq, müxtəlif üsullar şərh edilir.

52. Əliquliyev R.M., Məmmədova M.H. Elektron tibb: mahiyyəti, imkanları, problemləri / **"Elektron tibbin**

multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016,** s. 10-16.

E-tibbin meydana gəlməsi zərurətini təyin edən faktorlar və tendensiyalar araşdırılmışdır. E-tibbin məqsədləri, mahiyyəti və imkanları göstərilmişdir. E-tibb sahəsində beynəlxalq təcrübə gözdən keçirilmiş, Azərbaycanda e-tibbin yaradılması istiqamətində görülən işlər haqqında məlumat verilmiş, vahid milli tibbi informasiya fəzasının yaradılmasına mane olan əsas problemlər qeyd edilmiş və təkliflər irəli sürülmüşdür.

53. Мамедова М.Г. Big Data в электронной медицине: возможности, вызовы и перспективы // **İnformasiya Texnologiyaları Problemləri. 2016,** № 2, с. 9-29.

Рассмотрены факторы, определяющие взрывной рост информации в медицине. Исследованы специфические особенности медицинских данных, определены сущность феномена Big Data и его потенциал в электронной медицине. Проведена систематизация приложений Big Data и показаны возможности последних в поддержке принятия лечебно-диагностических и управленческих решений. В контексте развития и трансформации медицины выделены преимущества Big Data аналитики в этой сфере. Указаны вызовы, ограничивающие использование Big Data в медицине, и приведены

перспективные направления их внедрения в исследуемую отрасль.

54. Агаев Ф.Т., Агабейли А.Ф. Особенности подготовки специалистов в области медицинской информатики / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** с.230-232.

    В статье рассмативается медицинская информатика и областях, которые она охватывает, об образовательных программы, с помощью которых подготавливаются специалисты в этой области. Описываются виды медицинской информатики и профессии, связанные с ней.

55. Шыхалиев Р.Г. О сетях мобильного мониторинга здоровья пациентов / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** с. 168-170.

    Мобильный мониторинг здоровья пациентов является очень важным с точки зрения предоставления людям медицинских услуг независимо от места, времени и причины. В статье рассматриваются вопросы использования мобильного мониторинга здоровья пациентов и описывается внедрение имеющихся беспроводных мобильных технологий для решения этих вопросов.

56. Шыхалиев Р.Г. Проблемы информационной безопасности беспроводных систем мониторинга здоровья пациентов / **“Elektron tibbin multidissiplinar problemləri” I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** с. 96-98.

    Беспроводной мобильный мониторинг здоровья пациентов является очень важным сервисом здравоохранения. При этом обеспечение информационной безопасности систем беспроводного мобильного мониторинга здоровья пациентов является жизненно важной задачей. В статье рассматриваются проблемы безопасности, угрозы безопасности, а также меры по обеспечению безопасности систем беспроводного мобильного мониторинга здоровья пациентов.

57. Абдуллаев С.Г., Фоменко С.С. Информационная перегрузка людей и ее негативные последствия / **“Elektron tibbin multidissiplinar problemləri” I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** с. 277-280.

    В статье рассматриваются некоторые вопросы информационной перегрузки людей, а также ее влияние на жизнедеятельность личности. Предлагаются рекомендации и советы по уменьшению негативных последствий влияния информационной перегрузки на людей.

58. Мехдиев Ш.А., Агаев Б.С. Медицинская электроника: состояние, проблемы и перспективы / **“Elektron tibbin multidissiplinar problemləri” I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** с. 110-113.

    Рассмотрены применение медицинской электроники, состояние и перспективы использования. Приведены различные виды устройств медицинской электроники, дана их классификация.

59. Алыгулиев Р.М. Технологии Data Mining в медицине / **“Elektron tibbin multidissiplinar problemləri” I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** с.25-29.

    В статье описаны цели, задачи и этапы обнаружения знаний в базах данных (KDD) и интеллектуального анализа данных (data mining). Исследована роль технологии data mining в анализе медицинских данных и перечислены ее этапы. Указаны проблемы, ограничения и тенденции применения технологии data mining к медицинским данным.

60. Мамедова М.Г. Потенциал Big Data в электронной медицине / **“Elektron tibbin multidissiplinar problemləri” I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016,** с. 215-220.

Рассмотрены факторы, определяющие взрывной рост информации в медицине. В контексте Big Data исследованы специфические особенности медицинских данных, определены сущность феномена Big Data и его потенциал в электронной медицине. Проведена систематизация приложений Big Data и показаны возможности последних в поддержке принятия лечебно-диагностических и управленческих решений.

61. Кулиева З.Ю. Медицинские компьютерные обучающие системы как эффективный инструмент непрерывного обучения / **"Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı,** Bakı, **24 may 2016**, с. 233-237.

    В данной работе описывается концепция разработки медицинских обучающих систем в рамках непрерывного обучения. Проведен анализ компьютерных медицинских обучающих систем, существующих на современном этапе развития медицинского образования. Представлены классификации обучающих программ, разделенные по структурным, дидактическим и обучающим функциям, а также по поставленным целям и задачам.

62. Набибекова Г.Ч. Медицинские веб-сайты: проблемы и пути их решения / **"Elektron tibbin multidissiplinar**

problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, **24 may 2016,** s. 65-68.

В статье подчеркивается значение интернет-ресурсов для обеспечения информационной поддержки деятельности в области медицины. Показано влияние развития веб-технологий на медицинские веб-сайты. Дана классификация медицинских веб-сайтов. Выявлены основные проблемы и риски, связанные с их использованием. Подведены итоги мониторинга медицинских веб-сайтов Азербайджана.

63. Hacırəhimova M.Ş. Səhiyyədə Big Data erası: vədlər və problemlər // **İnformasiya Texnologiyaları Problemləri. 2017**, № 1, s. 71-80.

Hazırda Big Data informasiya cəmiyyətinin əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. O, səhiyyəni dəyişdirə biləcək potensiala malikdir. Məqalədə Big Data-nın mahiyyəti açıqlanır. Səhiyyədə Big Data-nın mənbələri, imkanları şərh olunur. Həmçinin Big Data-nın səhiyyədə yaratdığı bəzi problemlər analiz olunur. Fərdi tibbi məlumatların təhlükəsizlik məsələlərinə baxılır, səhiyyə sahəsinin inkişafı üçün tövsiyələr verilir.

64. Məmmədova M.H., Cəbrayılova Z.Q. Tibbi kadrlara tələb və təklifin uyğunlaşdırılmasının qeyri-səlis situasiyaların analizi əsasında modelləşdirilməsi // **İnformasiya Texnologiyaları Problemləri. 2017,** № 1, s. 26-35.

Məqalədə tibbi kadrlar bazarının spesifikası göstərilir, tələb və təklifin qiymətləndirilməsi amilləri analiz olunur. Tibbi kadrlar bazarında tələb və təklifin qarşılıqlı münasibətlərinin modelləşdirilməsinin çoxvariantlı səviyyələri, tələb və təklifin idarə olunması məsələsinin qoyuluşu və məqsədi verilir. Qeyri-səlis situasiyaların analizi və obrazların tanınması əsasında mikrosəviyyədə tibbi kadrlara tələb və təklifin idarə olunması modeli təklif olunur.

65. Məmmədova M.H., Cəbrayılova Z.Q. Tibbi ekspert sistemlərinin yaradılması problemləri və inkişaf istiqamətləri // **İnformasiya Texnologiyaları Problemləri. 2017,** № 1, s. 81-91.

    Məqalədə tibbi ekspert sistemlər (ES) haqqında məlumat verilir, təbii tibbi intellektin süni tibbi intellektə transformasiyası problemlərinə baxılır. Müasir tibbi ES və onların inkişaf perspektivləri, o cümlədən Azərbaycanda işlənilmiş tibbi ES haqqında məlumat verilir. Respublikamızda e-tibbin formalaşması üçün bilik mühəndisliyinin inkişafına və bilik mühəndislərinin hazırlanmasına xüsusi diqqət ayrılması, yaradılmış ES-in istismarı istiqamətində fəallığın artırılması təklif olunur.

66. Əliquliyev R.M., Məmmədova M.H. Elektron tibbin mahiyyəti, imkanları və elmi problemləri // **İnformasiya Cəmiyyəti Problemləri, 2017**, № 2, s. 3-19.

Məqalədə elekrton tibbin meydana gəlməsi zərurətini şərtləndirən faktorlar və tendensiyalar araşdırılır. E-tibbin məqsədi, mahiyyəti və imkanları göstərilir. E-tibb sahəsində beynəlxalq təcrübə və onun Azərbaycanda formalaşması ilə bağlı vəziyyət nəzərdən keçirilir. Səhiyyənin informasiya-laşdırılmasının elmi əsaslarının zəif işlənilməsi qeyd olunur, elmi dəstək tələb edən problemlərin həlli yolu ilə e-tibbin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilir. Azərbaycanda e-tibbin inkişafına dair təkliflər irəli sürülür.

67. Hacırəhimova M.Ş., Əliyeva A.S. E-tibbə dair beynəlxalq qurumların və xarici ölkələrin təcrübəsi: çağırışlar, strategiyalar, konsepsiyalar // **İnformasiya Cəmiyyəti Problemləri, 2017,** № 2, s. 84-95.

Müasir informasiya-kommunikasiya texnologiyaları tibb üçün yeni imkanlar yaradır. Onun səhiyyə sferasına tətbiqi diaqnostika və müalicə üsullarını, həkimlərin bir-biri ilə və pasiyentlərlə qarşılıqlı əlaqə, müalicənin təşkili və sağlamlığın bərpası formalarını sürətlə dəyişdirir. Elektron tibbi müəssisələrin və xidmətlərin yaradılmasında daha dəqiq rəhbər prinsiplərə olan tələbat bu sahədə milli strategiyaların, konsepsiyaların işlənməsini zəruri etmişdir. Məqalədə beynəlxalq qurumların və bəzi inkişaf etmiş ölkələrin elektron tibb sahəsindəki strategiyaları, konsepsiyaları tədqiq olunur. Azərbaycanda səhiyyənin informasiyalaşdırılmasında mövcud vəziyyət təhlil olunur və bəzi tövsiyələr irəli sürülür.

68. Məmmədova M.H., Cəbrayılova Z.Q. Tibbi kadrlara tələb və təklifin uyğunlaşdırılmasının idarə olunması metodları // **İnformasiya Texnologiyaları Problemləri, 2017,** №2, s.16-27.

    Məqalədə tibb mütəxəssislərinə olan tələb və təklifin qeyri-səlis situasiya modelləri, onların uyğunlaşdırılmasının intellektual idarə olunması üçün situasiyaların qeyri-səlis oxşarlığı əsasında həll metodları təklif edilir. Tibb müəssisələrində tibb mütəxəssislərinin işəgötürülməsində qərarların qəbulu üçün mümkün ssenarilərə uyğun həll metodikası verilir, məsələnin həll alqoritmi və reallaşdırılması mərhələləri təsvir olunur.

69. Məmmədova M.H., Əhmədov S.M. Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyasında sosial medianın rolu // **İnformasiya Cəmiyyəti Problemləri. 2017,** № 2, s. 54-63.

    Məqalədə sağlamlıq imkanları məhdud şəxslərin müasir cəmiyyətə inteqrasiyasında sosial medianın imkanları araşdırılır. Əlillərin sosial media vasitəsi ilə ödənilə bilən tələbatları tədqiq olunur. Sağlamlıq imkanları məhdud şəxsləri dəstəkləyən sosial media texnologiyaları, cihazları və proqram təminatları təhlil edilir. Fiziki məhdudiyyətli şəxslərin sosial mediadan istifadə edərkən qarşılaşdıqları problemlər göstərilir və onların aradan qaldırılması ilə bağlı təkliflər verilir.

70. Мамедова М.Г., Джабраилова З.Г. Методы принятия решений в управлении трудоустройством медицинских специалистов // **Искусственный интеллект и принятие решений. 2017,** № 3, с. 69-81.

    Статья посвящена разработке методов принятия решений для интеллектуального управления трудоустройством медицинских специалистов. Учитывая специфические особенности кадрового сегмента здравоохранения, задача управления рынком медспециалистов идентифицирована как слабоструктурируемая и сведена к принятию решений по выбору политики согласования спроса и предложения. Выработаны модели спроса и предложения на медспециалистов, выделены возможные сценарии их взаимоотношений, базирующиеся на нечетком ситуационном анализе. Разработаны методы поддержки принятия решений, учитывающие многовариантный характер согласования спроса и предложения при трудоустройстве медспециалистов

71. Мамедова М.Г., Джабраилова З.Г. Распознавание образов в управлении спросом и предложением на медицинских специалистов / **XIII Международная конференция "Оптико-электронные приборы и устройства в системах распознавания образов,**

обработки изображений и символьной информации", Курск, **16-19 мая 2017,** с. 232–235.

Исследована проблема управления спросом и предложением на рынке труда медспециалистов, идентифицированная как слабоструктурируемая. Предложены нечеткая ситуационная модель спроса и предложения на медспециалистов и метод найма последних на основе нечеткого распознавания образов.

72. Mammadova M.G., Jabrayilova Z.G. Development of a multi-scenario approach to intelligent management of human resources in the field of medicine // **Eastern-European journal of Enterprise Technologies. 2017,** vol. 2, no. 3(86), pp. 4–14.

140. Şıxəliyev R.H. Rəqəmsal səhiyyə mühitində fərdi tibbi məlumatların kibertəhlükəsizlik problemləri və həlləri / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 58-64.

Bu gün elektron tibbi qeydlərin, teletibb platformalarının, daşına bilən cihazların və tibbi əşyaların internetinin geniş tətbiqi effektiv tibbi xidmətlərin yaradılmasına imkan verir. Lakin, bu texnologiyalar xəstələrə daha əlçatan tibbi xidmət təqdim etsə də, fərdi tibbi məlumatların (FTM) kibertəhlükəsizliyinə çoxsaylı təhdidlər yaratymışdır və

kiberhücumların riskini artırmışdır. FTM-lərə edilən kiberhücumlar onların bütövlüyünü və məxfiliyini poza bilər və nəticədə tibbi xidmətləri poza və səhiyyə təşkilatlarına inamı sarsıda bilər. Bununla yanaşı, FTM-lər tibbi tarixçələri, diaqnozları, müalicə planlarını, genetik məlumatları və sığorta məlumatlarını ehtiva etdiyinə görə, onlar şəxsiyyət oğurluğu, maliyyə fırıldaqları və sairə üçün istifadə edilə bilər. Buna görə də FTM-nin kibertəhlükəsizliyinin təmin edilməsi çox vacib məsələdir və onun hərtərəfli təhlilinə ehtiyac vardır. Bu tədqiqat işində FTM-nin kibertəhlükəsizliyinə təsir edən müxtəlif aspektlər, o cümlədən FTM-in rəqəmsallaşması ilə bağlı risklər, müasir səhiyyə İT sistemlərinin zəiflikləri, mövcud kibertəhlükələr, təhlükəsizlik standartları və tənzimləyici tələblər, həmçinin FTM-in kibertəhlükəsizliyinin artırılması üçün perspektivli sahələr təhlil edilir.

141. Mahmudov R.Ş. Tibbi verilənlərin monetizasiyası məsələləri / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 65-70.

Müasir rəqəmsal texnologiyaların inkişafı nəticəsində tibbi verilənlər səhiyyə sisteminin əsas resurslarından birinə çevrilmişdir. Elektron sağlamlıq qeydləri, genetik informasiya, mobil tətbiqlər və daşınan texnologiyalar vasitəsilə toplanan məlumatlar təkcə klinik məqsədlərlə deyil, həm də əczaçılıq, sığorta və süni intellekt əsaslı xidmətlər üçün iqtisadi dəyər

daşıyır. Bu məqalədə tibbi verilənlərin növləri və monetizasiya formaları təhlil olunur, məlumatların emal və kommersiyalaşdırılma mərhələləri araşdırılır, etik və hüquqi məsələlər dəyərləndirilir, eləcə də, bu sahədə qabaqcıl ölkələrin təcrübəsi şərh olunur. Azərbaycan kontekstində tibbi verilənlərin iqtisadi dövriyyəyə cəlb olunması potensialı və qarşıya çıxan çağırışlar təhlil edilir. Məqalənin məqsədi tibbi verilənlərin istifadəsində iqtisadi fayda ilə etik prinsiplər arasında balansı təmin edən effektiv və davamlı bir modelin konturlarını müəyyənləşdirməkdir.

142. Yusifov F.F. Pasiyentyönümlü rəqəmsal tibb ekosistemi: problemlər və həllər / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 78-82.

Rəqəmsal transformasiyalar rəqəmsal dövlət və rəqəmsal tibb sahələrinin getdikcə daha sıx şəkildə inteqrasiya olunmasına səbəb olur. Səhiyyə sisteminin rəqəmsal dövlət platformasına inteqrasiyası günün tələbidir. Hazırda rəqəmsal texnologiyaları səhiyyənin bütün sahələrində geniş tətbiq olunur. Ədəbiyyat analizi göstərir ki, hazırda səhiyyə sistemi özünün transformasiya mərhələsini yaşayır və əsas hədəflərdən biri fasiləsiz pasiyentyönümlü xidmətlərin göstərilməsidir. Məqalədə rəqəmsal tibb ekosisteminin formalaşdırılması və pasiyentyönümlü yanaşma əsasında tibbi xidmətlərin göstərilməsinə dair baxışlar analiz olunmuşdur.

Pasiyentyönümlü rəqəmsal tibb modelinə keçidin üstünlükləri, bu sahədə çağırışlar və mövcud problemlər araşdırılmışdır. Rəqəmsal texnologiyalar və fərdiləşdirilmiş tibbin formalaşması səhiyyəni vahid və daha effektiv sistemə çevirəcəkdir.

143. Ağayev B.S., Paşayeva M.M. Səs rəqslərinin aşağı zolaq tezliklərinin akustik küyünün sağlamlığa bəzi ziyanlı təsirləri / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 82-86.

Məqalə səs siqnallarının aşağı zolaq tezliklərinin akustik küyün ətraf mühiti çirkləndirməsi problemlərinə və sağlamlığa ziyanlı təsirinin araşdırılmasına həsr edilmişdir. Bu məsələlərin həllinin aktuallığını və qlobal əhəmiyyətini əsaslandırmaq məqsədilə BMT-nin "Dayanıqlı inkişaf konsepsiyası" sənədinə və digər nüfuzlu təşkilatların hesabatlarına istinad edilmişdir. Səs siqnallarının eşidilməyən infrasəs və eşidilən aşağı tezlik spektrlərinin sağlamlıq üçün yaratdığı bir sıra patoloji hallar araşdırılmışdır. İstehsalat sahəsindəki infrasəs mənbəyinin işçinin sağlamlığına təsirini qiymətləndirmək məqsədilə eksperimental tədqiqatlar aparılmışdır. Tədqiqat obyekti üzrə ölçmə nəticələri müvafiq standartların tələbləri əsasında emal edilmişdir. Alınmış nəticələr sanitar normaların göstəriciləri ilə müqayisə edilməklə iş yerinin küy mühitinin işçilərin sağlamlığına təsir dərəcəsi qiymətləndirilmişdir. Akustik küyün yol verilən həddən yüksək səviyyələrinin ziyanlı təsirinin

azaldılması məqsədilə bəzi mühafizə tədbirləri tövsiyyə edilmişdir.

144. Nəbiyev B.R., Daşdəmirova K.K. Rəqəmsal tibb infrastrukturunda kiber insidentlər, təhdidlər, risklər və onların intellektual analizi / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 87-91.

Tezisdə səhiyyə sektoruna yönəlmiş kibertəhlükələr və onların yaratdığı problemləri təhlil edir. Tibbi kibertəhlükələrin əsas növləri araşdırılır, onların pasiyent təhlükəsizliyinə, fərdi və klinik məlumatların məxfiliyinə, səhiyyə infrastrukturunun stabil fəaliyyətinə təsiri araşdırılır. Rəqəmsal səhiyyə sistemlərinə yönəlmiş qlobal miqyaslı kiberhücumlar və onların nəticələri təhlil edilir. Tibbi infrastrukturlarda kibertəhlükəsizliyin təmin edilməsi üçün həyata keçiriləcək tədbirlər və yanaşmalar təqdim olunur. Səhiyyə sektorunda kibertəhlükələrin effektiv idarə olunması və pasiyent etimadının qoruması məqsədilə milli səviyyədə ixtisaslaşmış Tibbi CERT-nin yaradılması təklif edilir.

145. Həşimov M.A. Beyin-kompüter interfeysinin tibdə tətbiqləri: mövcud vəziyyəti və perspektivləri / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 92-96.

Beyin-kompüter interfeysi (BKİ) bir-birini qarşılıqlı şəkildə tamamlayan insan beyini ilə kompüter arasında əlaqə sistemidir. Bu interfeys insan bədəninin sinir-əzələ sistemi ilə deyil, onun zehni fəaliyyətinin köməyi ilə əlaqənin qurulmasına imkan verir. Təqdim olunan məqalədə BKİ-nin tibb sahəsində tətbiqlərinə baxılmışdır. Bu məqsədlə məqalədə BKİ-nin mövcud vəziyyəti və gələcək perspektivləri barədə məlumat verilmişdir. BKİ-nin arxitekturası təhlil edilmiş, beyindən siqnalların alınması üsulları və texnikaları araşdırılmış, həmin siqnallar vasitəsilə cihazların işləmə prinsipi təqdim edilmişdir. BKİ-nin klinik tətbiqləri ilə bağlı həyata keçirilən təcrübələr və onlardan əldə olunan nəticələr göstərilmişdir. BKİ-nin laboratoriya mühitindən real həyat tətbiqetmələrinə keçməsi üçün bu sahədə mövcud olan problemlər analiz edilmişdir.

146. Ələkbərova İ.Y. Rəqəmsal tibb 4.0 və sosial kredit sistemləri: problemlər və perspektivlər / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 97-100.

Məqalədə sosial kredit sistemi haqqında qısa məlumat verilir, rəqəmsal tibb 4.0 və sosial kredit sistemlərinin (SKS) əlaqəli işinin ölkədə tibin inkişafına, vətəndaşların sağlamlığına, səhiyyə sisteminin uğurlu fəaliyyətinə necə təsir edəcəyi araşdırılır. Rəqəmsal tibb 4.0 və Səhiyyə 4.0 konsepsiyalarının mahiyyəti, onların xüsusyyətləri, oxşar və fərqli cəhətləri analiz olunur. Rəqəmsal tibin sürətlə inkişaf etdiyi müasir dövrdə

SKS-nin bu istiqamətdə yaratdığı problemlər, potensial risklər müəyyənləşdirilir. Həmçinin, Rəqəmsal tibb 4.0-ın təsiri ilə SKSnın gələcək perspektivlərinə diqqət yetirilir, SKS-nin insanların sağlamlığına, davranışlarına və ümumi rifaha potensial təsirləri müəyyənləşdirilir.

147. Araz Mustafa. Şifrləmə metodlarından istifadə etməklə mərkəzləşdirilmiş fərdi tibbi məlumat bazalarının kibertəhlükəsizliyinin təmin edilməsi / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 101-105.
Fərdi tibbi məlumatların məxfiliyinin və təhlükəsizliyinin təmin edilməsi müasir dövrdə ən vacib məsələlərdən biridir. Xüsusilə səhiyyə sistemlərinin rəqəmsallaşmasının geniş istifadə olunduğu bir dövrdə fərdi tibbi məlumatların qorunması böyük əhəmiyyət kəsb edir. Dünya üzrə səhiyyə təşkilatları və dövlətlər bu məsələyə ciddi yanaşaraq müxtəlif təhlükəsizlik protokolları və şifrləmə metodları tətbiq edirlər. Tədqiqat işində mərkəzləşdirilmiş fərdi tibbi məlumat bazalarının kibertəhlükəsizliyinin təmin edilməsi məsələləri araşdırılmış və onların kibertəhlükəsizliyini artırmaq üçün istifadə olunan əsas şifrləmə metodları analiz edilmişdir.

148. Adıgözəlova N.A. Scopus və Web of Science bazalarının məlumatları əsasında tibb elmlərinin bibliometrik analizi / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və**

perspektivlər" II respublika elmi-praktiki konfransı. Bakı, **23 may 2025,** s. 110-113.

Son illər beynəlxalq elmi bazalar və onların göstəricələrindən istifadə edərək elmmetrik tədqiqatların aparılmasına böyük əhəmiyyət verilir. Tədqiqat işinin məqsədi Scopus bazasının məlumatlarından istifadə etməklə səhiyyə və tibb elm sahəsinin qiymətləndirilməsidir. Bu məqsədlə işdə səhiyyə və tibb elmləri sahəsi üzrə Scopus elmi bazasına daxil olan məqalələr və istinadlar analiz edilmiş, o cümlədən bütün elm sahələri ayrılıqda təhlil edilmiş və tibb elmlərinin digər elm sahələri ilə müqayisəsi verilmişdir. Bununla yanaşı səhiyyə elmləri sahəsində Web of Science və Scopus bazasında indeksləşən jurnallar analiz edilmiş, TOP 20-yə daxil olan tibb elmləri sahəsindəki jurnallar araşdırılmışdır.

149. Fətəliyev T.X., Verdiyeva N.N. Rəqəmsal tibbin inkişafında vətəndaş elminin rolu / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s.114-117.

Sənaye 4.0 texnologiyalarının geniş tətbiqi elmin müxtəlif sahələrində, o cümlədən e-elmin yeni istiqaməti olaraq müstəqil elm sahəsi kimi formalaşan vətəndaş elminin inkişafında özünü göstərməkdədir. Nəticədə müasir cəmiyyətdə elmi tədqiqatların forması dəyişir və bununla da digər sahələrlə yanaşı rəqəmsal tibbin də inkişafına öz təsirini göstərir. Məqalə bu kontekstdə vətəndaş elminin rolunun tədqiqinə həsr olunmuşdur. Rəqəmsal

tibbin inkişafında vətəndaş elmi amili nəzərdən keçirilmiş, xarakterik prinsipləri və layihələrin icrasında vətəndaşların iştirakı xüsusiyyətləri araşdırılmışdır. Mövzu üzrə tədqiq edilmiş materiallar əsasında vətəndaş elminin verdiyi əsas imkanlar və tətbiqi perspektivləri göstərilmişdir.

150. Qurbanova Ə.M., Bağırova M.H. Rəqəmsal tibbi terminoloji sistemin formalaşması problemləri və onların həlli yolları / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 118-121.

Rəqəmsal tibbi terminoloji sistem beynəlxalq standartlara cavab verən vahid terminologiyadan, böyük həcmli məlumatların saxlanması, emalı üçün güclü rəqəmsal platformadan istifadəni və digər tibbi informasiya sistemləri ilə inteqrasiyanı tələb edir. Tədqiqat işində rəqəmsal tibbi terminoloji sistemin formalaşması problemləri araşdırılmışdır. Rəqəmsal tibbi terminologiyanın Big Data texnologiyaları ilə qarşılıqlı əlaqəsi, bu texnologiyaların tibbi məlumatların təhlili, fərdiləşdirilmiş və keyfiyyətli xidmətlərin göstərilməsi üçün açdığı yeni imkanlar analiz edilmişdir. Rəqəmsal tibbi terminologiyanın idarə edilməsi sistemlərinin təkmilləşdirilməsi üçün təbii dilin emalı, süni intellekt və blokçeyn texnologiyalarından istifadənin üstünlükləri araşdırılmışdır. Tibbi informasiya sistemlərinin qarşılıqlı fəaliyyətini təmin etmək, tibbi sənədlərin keyfiyyətini artırmaq və klinik qərarların qəbulunu dəstəkləmək üçün

standart terminologiyadan istifadənin faydaları təhlil edilmişdir. Rəqəmsal tibbi terminoloji sistemin inkişaf perspektivləri müəyyənləşdirilmişdir.

151. Qurbanova K.Ş. Süni intellekt texnologiyalarının tibdə tətbiqinin yaratdığı imkanlar və perspektivlər / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 122-126.

İnformasiya-kommunikasiya texnologiyalarının davamlı inkişafı müasir kompüter və robot sistemlərinin təmassız idarə olunması üçün əlverişli mühit yaratmışdır. İşdə tibb sahəsinə süni intellekt texnologiyalarının (SİT) inteqrasiyasının mühüm əhəmiyyət kəsb etdiyi və müxtəlif tibbi proseslərdə əvəzolunmaz rolu qeyd edilmişdir. Müasir zamanda xəstənin mövqeyini və ya hərəkətlərini məhdudlaşdırmadan real vaxt rejimində SİT-dən istifadə etməklə xəstəliklərin monitorinqinə imkan verən üsullar istiqamətində görülən işlər haqqında məlumat verilmişdir. Cərrahi robotların tibb sahəsindəki nailiyyətləri qeyd edilmiş və nümunələr göstərilmişdir. Qeyd edilmişdir ki, təmassız idarə olunan texnologiyaların, robototexnikanın, elektron tibbin və teletibb layihələrinin səhiyyə sahəsinə inteqrasiyası tibb sahəsində yeni perspektivlər açmışdır.

152. Nəbiyeva A.R. Azərbaycanda tibdə süni intellekt texnologiyalarının tətbiqi tarixi / **"Rəqəmsal tibb 4.0:**

problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı. Bakı, **23 may 2025,** s. 127-130.

Son illərdə bütün sahələrdə olduğu kimi, səhiyyədə də rəqəmsallaşma istiqamətində müəyyən işlər görülmüş, mühüm elmi nəticələr əldə edilmişdir. Tibbin rəqəmsallaşması üzrə tədqiqatların aparılması XX əsrin sonlarından başlamışdır. Məqalədə Azərbaycanda süni intellektin səhiyyə sistemində tətbiqinin əhəmiyyəti göstərilir, süni intellektin tibdə tətbiqinə dair tədqiqatlar və elmi-nəzəri nəticələrinin cəmiyyətə verdiyi töhfələrdən bəhs edilir. Ölkəmizdə keçən əsrin 90-cı illəri və XXI əsrin əvvəllərində süni intellektin tibdə tətbiqi ilə bağlı görülən işlər, yaradılmış tibbi ekspert sistemləri, onların metodoloji bazasını əks etdirən dissertasiya işləri, hazırda Azərbaycanda rəqəmsal tibbin inkişafı istiqamətində aparılan tədqiqatlar haqqında məlumat verilmişdir.

153. Rzayeva N.A. Cəmiyyət 5.0 çərçivəsində rəqəmsal transformasiyanın inklüziv inkişafa təsiri / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s.131-134.

Məqalədə Cəmiyyət 5.0 konsepsiyası kontekstində inklüziv cəmiyyətin formalaşmasında rəqəmsal transformasiyanın rolu araşdırılır. Xüsusi diqqət süni intellekt, əşyaların interneti, böyük verilənlər və robototexnika kimi əsas texnologiyaların

təhsilə, səhiyyəyə, əmək fəaliyyətinə və sosial inteqrasiyaya bərabər çıxış imkanlarının təmin olunmasındakı potensialına yönəldilir. Sosial maneələrin aradan qaldırılmasında rəqəmsal həllərin —fərdiləşdirilmiş təhsil platformalarının, ağıllı şəhər sistemlərinin, sağlamlıq monitorinqi sistemlərinin və yardımçı robototexniki qurğuların rolu təhlil edilir. Rəqəmsal bərabərsizliyin qarşısını almaq üçün inklüziv rəqəmsal infrastrukturun inkişaf etdirilməsinin və əhalinin rəqəmsal savadlılığının artırılmasının vacibliyi ayrıca vurğulanır. Nəticədə qeyd olunur ki, Cəmiyyət 5.0 çərçivəsində rəqəmsal transformasiya bütün fiziki, sosial və iqtisadi xüsusiyyətlərindən asılı olmayaraq, cəmiyyətin bütün üzvləri üçün daha ədalətli və əlçatan gələcəyə yol açır.

154. Məmmədova M.H., Bayramov N.Y, Cəbrayılova Z.Q., Manaflı M.İ., Hüseynova M.R. Hepatosellülyar karsinomanın diaqnostikası üçün ekspert sistemi / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 141-145.

Məqalədə qaraciyərin bədxassəli şişləri arasında ən geniş yayılan hepatosellülyar karsinomanın (HSK) hansı mərhələdə olması ilə bağlı qərarlar qəbul edən və onlayn mühitdə əlyetər olan ekspert sisteminin yaradılması alqoritmi verilmişdir. HSK çoxlu sayda kliniki əlamətlərlə xarakterizə olunur, əlamətlərin ala biləcəyi çoxsaylı qiymətlərə görə yaranan müxtəlif

kombinasiyalar HSK-nın 7 mərhələsindən birinə uyğundur. İstinad edilən parametrlərin çoxluğu, mürəkkəbliyi, kəmiyyət və keyfiyyət xarakterli olması HSK-nın mərhələsinin təyini məsələsinin qeyri-müəyyən mühitdə baş verdiyini şərtləndirir və intellektual texnologiyalara istinad etməklə HSK-nın diaqnostikası sisteminin işlənilməsini aktuallaşdırır. Bu məqsədlə ekspert sistemini təşkil edən verilənlər bazası, bilik bazası, məntiqi nəticəçıxarma mexanizmi, interfeys bloklarının formalaşması təsvir edilmiş və bu arxitektur komponentlərin vahid sistemdə qarşılıqlı əlaqədə fəaliyyəti əsasında qərarların qəbulu alqoritmi işlənilmişdir. Zaman və məkandan asılı olmayaraq eyni vaxtda bir neçə həkimin operativ qərar qəbul etməsi üçün Visual Study 2019 platformasında C# proqramlaşdırma dilində reallaşdırılan diaqnostik sistemin veb texnologiyalarla inteqrasiyası məsələsi həll edilmişdir.

155. Məmmədova M.H., Abdullayeva F.D. Beyin şişlərinin tibbi təsvirlər əsasında vision transformer modelləri ilə diaqnostikası / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 169-172.

Müasir dövrdə insanların ölümünə ən çox səbəb olan xəstəliklərdən biri beyin şişidir. Bu xəstəliyin erkən mərhələdə və dəqiq aşkarlanması dünya əhalisinin böyük bir hissəsinin həyatını xilas edə bilər. Pasiyentlərdə beyin şişlərinin dəqiq diaqnostikası və klassifikasiyası effektiv müalicə üsulunun təyin

olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu məqalədə maqnit rezonans tomoqrafiya təsvirlərindən istifadə etməklə pasiyentlərdə beyin şişlərinin yüksək dəqiqliklə aşkarlanmasını və kateqoriyalaşdırılmasını təmin edən vision transformer və çoxbloklu konvalyusiya neyron şəbəkələrinə əsaslanan modellər işlənilmişdir. Təklif olunan üsullar elmi tədqiqatlar üçün açıq olan tibbi təsvir bazalarında sınaqdan keçirilmiş və müxtəlif metrikalar əsasında qiymətləndirilmişdir. Bu modellərin tətbiqinin əsas üstünlüyü təsvirlərdə əlamətlərin çıxarılması proseslərinin ənənəvi seqmentləşdirmə üsulları ilə deyil, diqqət və filtrasiya mexanizmləri vasitəsilə həyata keçirilməsindən ibarətdir.

156. Məmmədova M.H., Bayramov N.Y., Cəbrayılova Z.Q., Manaflı M.İ., Hüseynova M.R. Hepatosellülyar karsinomanın ilkin müalicə seçimi üçün intellektual sistemin yaradılması alqoritmi / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 178-183.

Məqalədə xərçəng xəstəlikləri arasında rastgəlmə tezliyinə görə 5-6-cı yerdə olan hepatosellülyar karsinomanın (HSK) ilkin müalicə seçimi ilə bağlı həkim qərarlarını dəstəkləyən intellektual sistemin yaradılması alqoritmi verilmişdir. HSK çoxlu sayda parametrlərlə təyin edilir, onların ala biləcəyi qiymətlərə görə yaranan kliniki situasiyalar əsasında HSK-nın müalicəsində mərhələli klassik yanaşmaya görə rezeksiya,

transplantasiya, ablasiya, embolizasiya, sistemik müalicə, simptomatik müalicə seçilir. Giriş parametrlərinin çoxluğu, mürəkkəbliyi, kəmiyyət və keyfiyyət xarakterli olması HSK-nın müalicə seçimini çətin formalizə olunan məsələ kimi səciyyələndirir və onun həlli üçün intellektual sistemin işlənilməsini aktuallaşdırır. Bu məqsədlə HSK-nın fərdi müalicə seçimi üçün multidissiplinar konsiliumda toplanan həkim biliklərinin intellektual sistemin bilik bazasına inteqrasiyası məsələsi həll edilmiş, sistemin arxitektur komponentlərinin iş prinsipi və reallaşdırılması alqoritmi işlənilmişdir.

157. Mahmudova Ş.C. Süni immun sistemləri əsasında tibbi təyinatlı proqram sisteminin kibertəhlükəsizliyinin təmin edilməsi alqoritmi / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 196-200.

Məqalədə süni immun sistemləri əsasında tibbi təyinatlı proqram sisteminin (PS) kibertəlükəsizliyini təmin etmək üçün alqoritm işlənilmişdir. Süni immun sistemi nəzəri immunologiyada problemlərin həlli üçün istifadə olunan modellərdən, prinsiplərdən, mexanizmlərdən və funksiyalardan istifadə edən adaptiv hesablama sistemidir. Onun müxtəlif elm sahələrinə tətbiqi araşdırılmışdır. Süni immun sistemlərinin proqram sistemi üçün oynadığı rol əvəzsizdir. Süni immun sistemi sahəsində olan bəzi ədəbiyyatların təhlili aparılmış, həll olunası məsələlər müəyyənləşdirilmişdir. Bayes metodu

müəyyən şərt daxilində hər hansı bir hadisənin olma ehtimalını dəqiq hesablamağa icazə verir. İşdə süni immun sistemlərdən istifadə etməklə tibbi təyinatlı proqram sisteminə Bayes metodunun tətbiqi bununla əlaqədardır. Bunun üçün alqoritm işlənilmişdir. Eksperimentlərin nəticəsi qənaətbəxş olmuşdur.

158. Məmmədova M.H., Abdullayeva F.D. Süni intellekt əsaslı sağqalma təhlili əsasında pasiyentin yaşam müddətinin proqnozlaşdırılması / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 201-204.

Əhalinin sağlamlığının qorunması və uzunömürlülüyün təmin edilməsi daim inkişaf edən səhiyyə və tibbin başlıca məqsədlərindəndir. Bu məqsədə nail olmaq üçün müasir tibbi praktikada pasiyentin müayinə nəticələrinin təhlili, xəstəliyin diaqnozunun dəqiq proqnozlaşdırılması və müalicə strategiyalarının əvvəlcədən qiymətləndirilməsi vacib amillər hesab olunur. Həkimlər bu proseslərdə geniş spektrli metod və texnologiyalardan istifadə edirlər. Onlar arasında sağqalma təhlili xüsusi yer tutut və bu sahədə effektiv metodologiyalardan biri hesab olunur. Səhiyyənin və tibbin sürətlə rəqəmsallaşması pasiyentin yaşam müddətinin daha dəqiq proqnozlaşdırılmasında innovativ yanaşmaların və metodların tətbiqi üçün yeni imkanlar yaratmışdır. Bu məqalədə tibbi verilənlər əsasında pasiyentin yaşam müddətini proqnozlaşdırmaq məqsədilə süni intellekt əsaslı sağqalma təhlili

üçün yanaşma işlənib hazırlanmışdır. Təklif olunmuş yanaşmanın effektivliyi Concordance Index və AUC metrikaları əsasında qiymətləndirilmişdir. Alqoritmlərin müqayisəli təhlili göstərmişdir ki, pasiyentin yaşam müddətini ən yüksək dəqiqliklə proqnozlaşdıran model Fast Survival SVM olmuşdur.

159. Hacırəhimova M.Ş., Əliyeva A.S., İsmayılova M.İ. Data elminin tətbiqi ilə ölkə üzrə tibbi kadr potensialının vəziyyətinin analizi və beynəlxalq səviyyədə müqayisələr / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 205-212.

Bu tezisdə əsas səhiyyə göstəriciləri üzrə Azərbaycanda tibbi kadr potensialının mövcud vəziyyəti təhlil olunur və problemlər vurğulanır, beynəlxalq səviyyədə müqayisələr aparılır. Data elminin və analitikanın səhiyyə sahəsindəki irəliləyişlərdə təsirləri araşdırılır. Tibbi problemlərin aradan qaldırılmasında Data elminin istifadə etdiyi süni intellekt, Big data analitika, Maşın təlimi, Dərin təlim və s. kimi müasir texnologiyalardan bəhs olunur, mövcud elmi tədqiqatların qısa icmalı təqdim olunur. Tədqiqatda həmçinin maşın təlimi modeli əsasında Azərbaycanda tibbi insan resurslarının bəzi tibbi göstəricilər üzrə proqnozlarının nəticələri verilir.

160. Məmmədova M.H., Cəbrayılova Z.Q., Qarayeva L.A., Hüseynova M.R. Hepatosellülyar karsinoma üzrə milli

bazanın MICE metodu əsasında təkmilləşdirilməsi ilə proqnozlaşdırma məsələsinin həlli / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 213-217.

Məqalədə hepatosellülyar karsinoma (HSK) üzrə milli verilənlər bazasındakı boşluqların doldurulması və maşın təlimi alqoritmləri əsasında proqnozlaşdırma məsələsinin həlli təklif edilmişdir. Proqnozlaşdırma məsələlərinin maşın təlimi alqoritmləri ilə həlli bazanın təkmilləşdirilməsini və mövcud boşluqların doldurulmasını tələb edir. Tədqiqatda MICE metodu əsasında HSK üzrə milli bazadakı boşluqların doldurulması mərhələləri təqdim edilmişdir. Milli bazadakı məlumatlar əsasında kliniki xəstələrin vəziyyəti ilə bağlı proqnoz nəticələrin alınması üçün onun hissə-hissə Kaggle platformasından götürülmüş, proqnoz nəticələri ("ölüm-0" və ya "sağqalma-1") məlum olan HCC datasetinə birləşdirilməsi və genişləndirilmiş bazada Random Forest və XGBClassification maşın təlimi alqoritmlərinin tətbiqi verilmişdir.

161. Nəbibəyova G.Ç., Əliyeva L.İ. Rəqəmsal tibb mühitində smart OLAP sistemlərinin tətbiqi: imkanlar, problemlər və perspektivlər / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, s. 221-225.

Məqalədə rəqəmsal tibb mühitində smart OLAP sistemlərinin (Online Analytical Processing) rolu, imkanları və problemləri təhlil edilir, bu sahədə rəqəmsal tibbi standartlar nəzərdən keçirilir. Qeyd olunur ki, son zamanlar bütün sahələrdə, o cümlədən tibb sahəsində məlumatların həcmi və məlumat mənbələrinin sayının xeyli artması Data Mining, blokçeyn və neyron şəbəkələr kimi rəqəmsal texnologiyalardan istifadə etmək zərurəti yaratmışdır. OLAP sistemlərinin bu texnologiyalarla inteqrasiyası çoxölçülü tibbi məlumatların effektiv təhlili, klinik qərarların qəbuluna dəstək və səhiyyə resurslarının optimallaşdırılması üçün geniş imkanlar yaradır. OLAP sistemlərinin bu texnologiyalarla inteqrasiya modelləri göstərilib, blokçeyn, Data Mining və neyron şəbəkə texnologiyaları ilə inteqrasiya olunduğu hibrid modeli işlənib təqdim olunmuşdur

162. Ocaqverdiyeva S.S. Rəqəmsal fəaliyyət və uşaq sağlamlığı: fənlərarası təhlil / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 232-235.

Məqalədə uşaq və yeniyetmələrin təhsil, sosial münasibətlər və bilik əldə etmək üçün rəqəmsal texnologiyalardan istifadəsinin faydaları, onların fiziki və psixi sağlamlığına və psixologiyasına potensial təsirləri əks olunub. Uşaqların internetdən istifadəsindən yaranan risklər tibbi, psixoloji və pedaqoji aspektlərdən təhlil edilir. Rəqəmsal fəaliyyətin uşaqların

sağlamlığına həm müsbət, həm də mənfi təsirləri fənlərarası bir yanaşma ilə araşdırılır. Məqalədə, həmçinin uşaqlar üçün sağlam rəqəmsal mühit yaratmaq üçün kompüterdən istifadə edərkən erqonomik duruşun vacibliyi izah edilir və onların rəqəmsal alətlərlə kritik və məlumatlı əlaqəsi üçün praktiki tövsiyələr verilir ki, bu da onlara onlayn dünyada təhlükəsiz və diqqətli şəkildə hərəkət etməyə imkan verir.

163. Məmmədova M.H., Cəbrayılova Z.Q., Əhmədova A.A., Hüseynova M.R. Power BI platformasında fərdmərkəzli tibbi rəqəmsal əkizin yaradılması alqoritmi / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s.239-245.

Məqalədə rəqəmsal əkizlər texnologiyasının mahiyyəti və arxitektur-texnoloji prinsipləri verilmişdir. İnsan bədəninin orqan və müvafiq xəstəliklər səviyyəsində rəqəmsal əkizinin qurulması mərhələləri təklif edilmiş, virtual obyektin sxematik təsviri işlənilmişdir. Fiziki obyektdə baş verən hər hansı bir dəyişikliklərin virtual obyektdə yenilənməsini əyani təqdim etmək üçün Power BI tətbiqi seçilmiş, tibbi məlumatların vizuallaşdırılması əsasında rəqəmsal əkizin yaradılması alqoritmi işlənmişdir. Real informasiya mənbəyi kimi həkimlər tərəfindən sirroz xəstəlikləri ilə bağlı yaradılmış milli verilənlər bazasından istifadə edilmişdir. Tibbi verilənlərin vizuallaşdırılması əsasında yaradılan rəqəmsal əkizin idarəetmə

paneli müayinə nəticələrinin dinamiki dəyişməsini izləməyə imkan verir.

164. Ocaqverdiyeva S.S. İnternet asılılığı problemləri və həlli yolları / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 246-249.

İnternetə olan maraq və güvən şəbəkə istifadəçilərinin sayının artmasına təsir göstərir. Bəzi insanlar virtual reallıq və onlayn mühiti gündəlik həyatın stresindən, problemlərindən və çətinliklərindən müvəqqəti uzaqlaşmaq üçün bir vasitə kimi qəbul edirlər. Lakin, bu tendensiya İnternet Asılılığı (İA) kimi psixoloji və sosial rifaha mənfi təsir göstərən bir problemi də aktuallaşdırır. Məqalədə İA-nın əsas simptomlarını, müxtəlif formalarını təhlil edərək, onun psixi sağlamlıq və sosial rifaha zərərli təsiri araşdırılır. Bununla yanaşı, problemin həllində tətbiq olunan beynəlxalq müalicə və reabilitasiya yanaşmaları nəzərdən keçirilir. İA-nın ictimai sağlamlıq prioritetləri sırasına daxil edilməsi, onun ağırlaşmalarının qarşısının alınması və effektiv müdaxilə strategiyalarının işlənib hazırlanması üçün təkliflər verilir.

165. Məmmədova M.H., Cəbrayılova Z.Q., Şıxəliyeva N.R. Sosial media resurslarının pasiyent-dərman seqmentində rəylərin sentiment analizi / **"Rəqəmsal tibb 4.0:**

problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı. Bakı, **23 may 2025,** s. 250-253.

Məqalədə sosial medianın tibb seqmentində toplanan dərmanlarla bağlı pasiyent rəylərinin sentiment analizi əsasında pasiyent-xəstəlik-dərman əlaqələrinin aşkarlanması və xəstəliklər üzrə dərmanların effektivkiyinin təyini məsələsinə baxılmışdır. Dərmanlar haqqında pasiyent rəylərinin analizini aparmaq üçün Kaggle platformasının drugsComTest_raw.csv tibbi məlumat bazasından istifadə edilmiş, leksikon əsaslı sentiment analiz, statistik metodlar və maşın təlimi alqoritmləri tətbiq edilmişdir. Rəylərdə aşkarlanmış pasiyent-xəstəlik, xəstəlik-dərman əlaqələri üzrə rəylərin sentiment analizi aparılmış, pasiyent-dərman seqmentində toplanan rəylər əsasında: 1) ən çox hansı xəstəliklərlə bağlı dərmanlara müraciət edildiyi; 2) hər bir xəstəliklə bağlı daha çox hansı dərmana üstünlük verildiyi kimi məsələlərin həll imkanı göstərilmişdir. Bu məsələlərin inteqrasiyasından alınan nəticələr əsasında müxtəlif tibbi vəziyyətlər (xəstəliklər) üçün dərmanların effektivliyi ilə bağlı ictimai rəy identifikasiya edilmişdir.

166. Səmidov A.F. Rəqəmsal tibb 4.0 mühitində təcili tibbi yardım xidməti: çağırışlar, imkanlar və perspektivlər / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025,** s. 254-257.

Təcili tibbi yardım (TTY) istənilən ölkənin səhiyyə sisteminin ayrılmaz hissəsidir. Kritik vəziyyətlərdə olan insanlara vaxtında və peşəkar yardım göstərilməsini təmin edir. Bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da təcili tibbi yardım xidmətlərinin infrastrukturunun inkişafı və fəaliyyəti prioritet məsələdir. Məqalədə rəqəmsal tibb 4.0 konsepsiyasının təsiri altında təcili tibbi yardım sisteminin transformasiyası araşdırılmışdır, təcili tibbi yardımda diaqnostika, müalicə və idarəetmədə inqilab edən məsafədən tibb, süni intellekt, əşyaların interneti (IoT), mobil texnologiyalar, o cümlədən smartfonlar, planşetlər, mobil proqramlar və yeni nəsil geyinilə bilən ağıllı saatlar, biosensorların inteqrasiyası eləcədə böyük verilənlər kimi əsas texnologiyalar və yanaşmalar təhlil edilmişdir. Rəqəmsal həllərin tətbiqinin faydaları, o cümlədən diaqnostik dəqiqlik, fərdiləşdirilmiş müalicə və resursların optimallaşdırılması müzakirə olunur. Rəqəmsal Tibb 4.0 TTY xidmətlərini yalnız texniki baxımdan deyil, həm də idarəetmə, qərar qəbuletmə və xəstə məmnuniyyəti baxımından təkmilləşdirir. Xüsusilə real vaxt rejimində məlumat mübadiləsi, xəstə monitorinqi və resursların səmərəli bölgüsü TTY xidmətlərinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Rəqəmsallaşma dövründə təcili tibbi yardımın gələcək inkişafı üçün çağırışlar və perspektivlər də nəzərdən keçirilmişdir

167. Şıxəliyeva N.R. Sosial media resurslarındakı informasiya əsasında dərmanların effektivliyi ilə bağlı ictimai rəyin

təyini / **“Suni intellekt: nəzəriyyədən praktikaya” II Beynəlxalq elmi konfransı.** Naxçıvan**, 26-27 may 2025,** s.219-228.

Məqalədə sosial medianın tibb seqmentində toplanan pasiyent rəylərinin sentiment analizi əsasında dərmanların effektivliyinin təyini məsələsinin həllinə baxılmışdır. Dərmanlar haqqında pasiyent rəylərinin analizini aparmaq üçün Kaggle platformasının drugsComTest_raw.csv tibbi məlumat bazasından istifadə edilmiş, leksikon əsaslı sentiment analiz, statistik metodlar və maşın təlimi alqoritmləri tətbiq edilmişdir. Tədqiqatda pasiyentlərin dərmanlarla bağlı sosial mediada paylaşdığı rəylər pasiyent-dərman, pasiyentxəstəlik, xəstəlik-dərman əlaqələri üzrə araşdırılmışdır. Bu əlaqələrə görə pasiyent rəylərinin sentiment analizindən alınan nəticələr əsasında: 1) ən çox hansı xəstəliklə bağlı dərmanlara müraciət olunur?; 2) hər bir xəstəlik üzrə ən çox müraciət olunan dərmanlar hansılardır? kimi sualların cavablandırılması imkanı göstərilmişdir. Bu məsələlərin həllindən alınan nəticələr səhiyyə sistemində müvafiq istiqamətlər üzrə ictimai rəyi nəzərə almaqla daha obyektiv və şəffaf qərarların qəbulunda istifadə oluna bilər.

168. Qarayeva L.A. HSK üzrə milli bazanın MICE metodu əsasında təkmilləşdirilməsi və tətbiqi / “**Suni intellekt: nəzəriyyədən praktikaya” II Beynəlxalq elmi konfransı.** Naxçıvan**, 26-27 may 2025,** s. 250-258.

Son dövrlərdə proqnozlaşdırma məsələlərinin həllində çevik avtomatlaşdırılmış, insan müdaxiləsi olmadan obyektiv nəticələrin alınması üçün maşın təlimi və süni intellekt metodlarının tətbiqinə geniş diqqət ayrılır. Maşın təlimi metodlarının tətbiqi ilk növbədə baxılan problemlə bağlı böyük həcmli, buraxılmış verilənləri (boşluqları) olmayan bazaların mövcudluğunu tələb edir. Lakin əksər bazalar, xüsusilə kliniki verilənlər bazaları belə boşluqlardan sığortalanmayıblar və bu boşluqların doldurulması üçün ekspert-mütəxəssislərin istinad etdiyi müxtəlif mürəkkəb prinsiplərə əsaslanan çoxlu sayda alqoritmlər istifadə edilir. Tədqiqatda hepatosellular karsinomanın (HSK) yayılmasının qarşısının alınması, onun ilkin diaqnozu və proqnozlaşdırılması üçün süni intellekt metodlarının tətbiqi üçün Kaggle platformasından götürülmüş HCC Dataset verilənlər bazasından istifadə etməklə maşın təlimi alqoritmləri tətbiq edilmişdir, kliniki verilənlərin analizində boşluqların doldurulması üçün MICE metodunun tətbiqinin daha məqsədəuyğun olduğu göstərilmiş və onun riyazi əsasları təqdim edilmişdir. MICE alqoritminin tətbiqi ilə HSK üzrə milli bazadakı boşluqların doldurulması mərhələləri təqdim edilmiş, alınan nəticələrin HSK-nın maşın təlimi metodları əsasında proqnozlaşdırılması üçün böyük əhəmiyyətə malik olduğu göstərilmişdir.

169. Əhmədova A.A. Pasiyentmərkəzli tibbi rərqəmsal əkizin ontoloji modeli / **“Suni intellekt: nəzəriyyədən**

praktikaya" II Beynəlxalq elmi konfransı. Naxçıvan, **26-27 may 2025,** s. 937-944.

Məqalədə rəqəmsal əkiz texnologiyasının tətbiqləri, mahiyyəti göstərilmiş, rəqəmsal əkiz texnologiyasının üstünlükləri şərh edilmişdir. Rəqəmsal əkiz canlı və ya cansız fiziki obyektin rəqəmsal surətidir. Tibbi rəqəmsal əkiz texnologiyalarının işlənilməsi real fiziki obyektdə baş verən dəyişikliklərlə bağlı yaranan (yaranacaq) problemlərin daha tez aşkarlanmasında, müvafiq qərarların qəbul edilməsində, həmçinin insan sağlamlığının qorunması, insanlara daha keyfiyyətli tibbi xidmətin göstərilməsində xüsusi əhəmiyyət kəsb edir. Xəstənin fiziki xüsusiyyətlərinin və bədənindəki dəyişikliklərin rəqəmsal mühitə köçürülməsilə ilə yaradılan rəqəmsal əkizin vasitəsilə xəstəliyə uyğun erkən diaqnozun qoyulması və daha uğurlu müalicə üsulunun seçilməsi imkanı yaranır. Məqalədə tibbi rəqəmsal əkizlər təhlil olunmuş və onların müsbət cəhətləri üzrə təsnifləndirilmişdir. Səhiyyədə xəstəliklərin terapiyası və səhiyyə idarəetmə qərarlarının qəbulunda çevikliyin, operativliyin təmin olunması üçün səhiyyənin pasiyentmərkəzli ontologiyası təhlil olunmuş, onun tibbi rəqəmsal əkizinin mərhələlərlə yaradılması və funksionallaşması üçün 4 səviyyəli ontoloji modeli təklif olunmuşdur. Səhiyyənin ümumilikdə pasiyentmərkəzli rəqəmsal əkizinin yaradılması üçün onun ontoloji modelinin hər bir səviyyəsi üzrə mövcud fiziki obyektlərin rəqəmsal əkizinin yaradılması vacib şərtlərdəndir.

170. Мамедова М.Г., Джабраилова З.К., Мамедалиев В. Медико-демографическая идентичность территориальных единиц в среде здравоохранения 4.0 / **“Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər” II respublika elmi-praktiki konfransı.** Bakı, **23 may 2025**, с. 226-231.

Рассмотрены проблемы выявления медико-демографической идентичности территориальных единиц в среде здравоохранения 4.0. Выделены факторы, формирующие территориальные особенности медико-демографических процессов. Предложена расширенная интерпретация понятия «человеко-центрированный подход», адаптированная к контексту конкретной территориальной единицы, личностным характеристикам и социальным детерминантам здоровья индивида. Через призму факторов, воздействующих на медико-демографические показатели населения, человекоцентрированного подхода, цифровизации здравоохранения и медицины изложены концептуальные взгляды авторов к возможным направлениям решения проблемы медикодемографической идентичности и медико-демографической безопасности территориальных единиц. Выявлены специфика проблемы и методологические трудности в ее реализации. Для исследования медико-демографической ситуации

территорий предложены методологические предпосылки, базирующиеся на системном подходе.

171. Alguliyev R.M., Aliguliyev R.M., Sukhostat L.V. Cyber resilience issues of medical cyber-physical systems / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı.** Bakı**, 23 may 2025**, pp. 10-13.

Medical cyber-physical system is a critical component of the medical device network. The application of cyber-physical systems in healthcare ranges from patient monitoring to various devices. Existing technologies in this area require constant updating and rapid response to ever-increasing cyberattacks. Among the most well-known threats to medical cyber-physical systems are tampering, phishing, spoofing, data exfiltration, ransomware, DoS, etc. Attackers try to disrupt the operation of medical cyber-physical systems and gain access to confidential medical data. Existing threats violate integrity, confidentiality, and availability. In this regard, various issues of medical cyberphysical systems' cyber resilience are considered in the paper.

172. Mehdiyev Sh.A. Adaptive protection against energy depletion attacks in wearable medical devices / **"Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və**

perspektivlər" II respublika elmi-praktiki konfransı. Bakı, **23 may 2025**, pp. 71-77.

Wearable medical devices (WMDs), such as pacemakers, insulin pumps, and other implantable systems, are critically dependent on battery charge, making them vulnerable to various energy depletion threats. This article examines the causes of energy loss, including cyberattacks targeting sensor, computational, and communication modules. Based on a comprehensive literature review, adaptive power management methods and an intrusion detection system are proposed to enhance the resilience of these devices. The findings highlight the urgent need for proactive strategies to ensure the energy security of WMDs in the face of increasing cyber-physical threats.

173. Mammadova M.H., Bayramov N.Y., Jabrailova Z.G., Manafli M.İ., Huseynova M.R. Clinical decision support system for hepatocellular carcinoma treatment selection. **6th International Conference on Problems of Cybernetics and Informatics (PCI).** Baku, **26-28 August 2025,** pp.11-15.

The article presents an algorithm for creating an intelligent physician decision support system regarding the initial treatment selection for hepatocellular carcinoma (HCC), which is the 5th-6th most common cancer. HCC is determined by a large number of parameters, and according to the values they

can receive, resection, transplantation, ablation, embolization, systemic treatment, symptomatic treatments are selected according to the staged classical approach to the HCC treatment based on the clinical situations that arise. The large number, complexity, quantitative and qualitative character of the input parameters symbolizes the choice of treatment for HCC as a difficult formalized issue and makes the development of an intelligent system for its solution relevant. In this regard, this article solves the issue of integrating the doctors' knowledge collected in a multidisciplinary consultation into the knowledge base of the intelligent system for the individual choice of treatment for HCC, and develops the working principle and implementation algorithm of the system's architectural components.

174. Mammadova M.H., Ahmadova A.A. Ontological model of patient-centered medical digital twin **XVIII Международная научно-техническая конференция «Оптико-электронные приборы и устройства в системах распознавания образов и обработки изображений» (Распознавание – 2025).** Курск**, 9-12 сентября 2025,** pp. 26-28.

The thesis demonstrates information about medical digital twin and highlights their advantages. A patient-centered ontology of healthcare is proposed, and a four level ontology model is built to create its digital twin.

175. Mammadova M.H., Jabrayilova Z.G., Shikhaliyeva N.R. Sentiment analysis of information from social media resources for determining public opinion on the effectiveness of drugs / **XVIII Международная научно-техническая конференция «Оптико-электронные приборы и устройства в системах распознавания образов и обработки изображений» (Распознавание – 2025).** Курск**, 9-12 сентября 2025,** pp.28-30.

This article highlights solution of the problem of determining the medications' effectiveness based on sentiment analysis of patient reviews collected in the medical segment of social media.To analyze patient reviews about drugs, lexicon-based sentiment analysis, statistical methods and machine learning algorithms are applied. Keywords.

176. Jabrayilova Z.G., Garayeva L.A. Algorithm for predicting hepatocellular carcinoma based on a national database / **XVIII Международная научно-техническая конференция «Оптико-электронные приборы и устройства в системах распознавания образов и обработки изображений» (Распознавание – 2025).** Курск**, 9-12 сентября 2025,** pp. 21-23.

This article presents an algorithm for predicting the hepatocellular carcinoma, with the application of based on

available national database. The algorithm is based on the application of the Multiple Imputation by Chained Equations to fill missing values in the national HCC database and the implementation of the XGBClassification model on the expanded HCC Dataset.

Redaktor: Mədinə Səidova

Texniki redaktorlar: Anar Səmidov

Könül Vəliyeva

Korrektor: Kəmalə Muradova

Kompüter tərtibatı: Samirə Şıxəliyeva